# BİZ TARİXİMİZİ YAŞADIRIQ

***Dərələyəzdən axıb gələn, suyundan, selindən gözəl gəlinimiz Saranın qərq olub əbədiyyətə qovuşduğu Arpa çayının sağ və sol sahillərindən ta xan Araza qədər - Ucumuz, Əjdəhan, Bəysal, Əjdəhaburun dağlarını əhatə edən Kiçik Qafqaz sıra dağları ərazisində qədimdən - qədim, uludan-ulu bir məmləkət məskunlaşıb.***

***Bu diyar " Dədə Qorqud" dastanlarında adı çəkilən Şərurdur.***




Şərur barlı-bəhrəli torpaqları, gözəl meri - meyvəcatı, zəngin təbii sərvətləri Gümüşlü mədəninin filizləri, Qaratəpə Xələc mərməri, travertin daşları və digər sərvətləri ilə şöhrət qazanmışdır.

Muzeyimizə daxil olanda ulu Dədə Qorqudun simvolik, müdrüklük rəmzi heykəl - barelyefi ilə qarşılaşacaqsınız. Həyətinin florası və faunası ilk baxışdan sizləri valeh edəcək. Muzeyin ətrafındakı müxtəlif meyvə ağacları sanki böyük bir nəbatət bağını xatırladır.

Bu diyar, bu məmləkət öz qoynunda tarixi yaşadır. Biz tarixi sevənlər də muzeyimizi zənginləşdirmək əzmindəyik və çalışırıq ki, eksponatların sayını 6500-dən 10000- ə çatdıraq.

Hər bir muzey əməkdaşı rayonun potensial imkanlarından, əhatə dairəsindən yararlanmaq və əməli iş görməyi özünə borc bilir. Muzey haqqında söhbət düşəndə elin-obanın tarixi yaddaşı hamının gözü önündə canlanır. Muzeyimizə gələnlər, onu ziyarət edənlər qocaman Şərurun tarixini yada salır, bu gününü görür, gələcəyə böyük ümidlə baxırlar.

Muzey haqqında bir qədər ətraflı söhbət açmaq istəyindəyəm.

Tarix - diyarşünaslıq muzeyimiz 1982-ci ildə ictimai əsaslarla yaradılıb. İlk dövrdə rayon əhalisinin köməkliyi sayəsində bir neçə nadir əşya muzeyə təqdim olunur.Buna qədim xalçanı, qılıncı, beşatılan tüfəngi, müxtəlif sənətkarlıq əşyalarını misal göstərə bilərəm.

İyirmi üç illik tarixi olan muzeyimiz indi əsl mədəniyyət ocağına çevrilib. Təkcə rayonumuzda yox, Muxtar Respublikamızın digər yerlərindən, MDB ölkələrindən, İran İslam Respublikasından, Türkiyədən, Amerika, İngiltərə, Fransa, Şimali və Cənubi Koreya məmləkətlərindən gələn qonaqlar muzeyimizlə tanış olur, xalqımızın, millətimizin tarixi keçmişi qarşısında şəhidlərimizin ruhunu yad edirlər.

Fond müdiri Zərifə Əliyeva, bələdçi Nuranə Musayeva, tərtibatçı - rəssam Həsən Ağayev, nəzarətçi Məlahət Abdullayeva, kiçik- elmi işçi Bəyimağa Sadıqova və başqaları muzeyə gələnlərə verdikləri məlumatlarla onlarda tariximiz barədə hərtərəfli təəssürat yaradır, özləri də çalışırlar ki, elmin, mədəniyyətin tarixi zirvəsinə yüksəlsinlər.

Muzeyimiz əvvəllər köhnə, darısqal, yararsız binada yerləşirdi. 1995-ci ildə şəhərin mərkəzində ikimərtəbəli, yaraşıqlı, tarixi abidəni xatırladan, müasir tipli binaya köçürülüb. Burada on üç bölmə fəaliyyət göstərir: təbiətşünaslıq, arxeologiya, etnoqrafiya, numuzimatika, Şəhidlər, Azərbaycan Vətən müharibəsi və Böyük Vətən müharibəsi, mədəniyyət və incəsənət, Şərur torpağının yetirmələri, alimlər, şairlər və s. eksponatlar tarixi mərhələlər üzrə ardıcıllıqla yerləşdirilib.

Muzeydə saxlanılan, nümayiş etdirilən eksponatların həmısı Şərur torpağından tapılıb. Eramızdan əvvəl III - II minilliklərə aid gil qab hissələri, saxsı qablar, daş büt nümunəsi, tunc bilərzik, tunc balta, xəncər, nizə ucları və s. əşyalar nadir incilərdir. Tamaşaçı eksponatlarla tanış olduqda Azərbaycanın tarixinə, mədəniyyətinə, incəsənətin sənətkarlıq ənənələrinə yaxından bələd olur.

Orta əsr Azərbaycan mədəniyyəti xalçaçılıq sənəti ilə daha çox yadda qalır. Xalqın doğma və sevimli sənətinin qədim Şərurda da



özünəməxsus inkişaf yolları olub. Muzeydəki kilim, xalça nümunələri bu sənətin tarixindən söz açır. Bər-bəzəkli fərmaşlar, xurcunlar, heybələr bu təsəvvürü daha da zənginləşdirir.



Qadın bəzək əşyaları xalqın mənəvi yaddaşının mühüm bir amilidir. Tarix üzü bəri getdikcə öz sənətkarlıq vərdişləri, estetik anmalar, peşəkar baxımdan daha da dolğunlaşdırılmışdır. Orta əsrlərdən başlamış XIX əsrə kimi muzeydə nümayiş etdirilən müxtəlif qadın bəzək əşyaları-boyunbağılar, göz muncuqları, sırğalar, kəmərlər və s. diqqəti cəlb edir. Xış, cüt, kotan, vəl, mərəndi və s. təsərrüfat alətləri qədim Azərbaycan kəndi barədə geniş təsəvvür yaradır. Bu təəssüratı at arabası ponoramı tamamlayır. Dəvə karvanı yada düşür.



Tamaşaçılar mədəniyyət bölməmizə də böyük maraqla baxırlar. Burada şərurlu mərhum Aşıq Nabatın sazı, qədim ney, zurna və sair musiqi alətləri nümayiş etdirilir. Həmçinin Sovet dönəmində rayon mədəniyyət şöbəsinin aldığı ümumittifaq və respublika keçici qırmızı bayraqları da muzeyimizdə saxlanılır.



Muzeyin ikinci mərtəbəsindəki zəngin bir guşə ümummilli liderimiz Heydər Əliyevin həyat və fəaliyyətinə həsr olunmuşdur. 2002-ci ildə dahi öndərimizin Naxçıvana səfəri zamanı Şərur torpağında olmasına dair foto-materiallar böyük bir vitrində öz əksini tapmışdır.

Torpaqlarımızın müqəddəsliyi, vətənə sevgi və məhəbbət hissələrinin gənclərə aşılanması baxımından da biz muzey işçilərinin üzərinə böyük vəzifələr düşür.

"Müasir dövr" adlı bölmədə yaxın keçmişimizin və bu günümüzün reallıqlarını özündə təcəssüm etdirən eksponatlar bugünkü tariximizdən danışır. Muzeydə şəhidlərə, Azərbaycan Vətən müharibəsi və Böyük Vətən müharibəsi iştirakçılarına aid kitablar, fotoşəkillər və sənədlər istənilən qədərdir. Hər bir sənət, hər bir eksponat onlarca insanın, igidin, qəhrəmanın həyatıdır, qırılmış ömrüdür, yarımçıq taleyidir.

Şərurlular öz doğma oğulları - Azərbaycanın Milli Qəhrəmanları Məhərrəm Seyidov, Səyavuş Həsənov, Kərim Kərimova həsr olunmuş guşələr, stendlər qarşısında saatlarla ayaq saxlayır, onların xatirəsini yad edir, şücaətləri önündə baş əyirlər.

Qarşıdan Böyük Vətən müharibəsində qələbəmizin "60 illik" yubileyi gəlir. Qələbənin təmin olunmasında şərurlular istər ön, istərsə də arxa cəbhədə böyük şücaət göstərmişdilər. Odur ki, muzeyimizdə Böyük Vətən müharibəsinin veteranları ilə tez-tez görüşlər keçirilir. Belə kütləvi tədbirlər həm muzeyə tamaşaçı cəlb olunmasında və həm də gənclərin vətənpərvərlik tərbiyəsində mühüm rol oynayır.

Şərur diyarı keçmiş tarixi şöhrəti ilə həmişə öyünə bilər. Muzeyi gəzən hər bir kəs təkcə öz ulu yurdu ilə fəxr etmir, həm də bu qədim torpağın hər bir qarışını göz bəbəyi kimi qoruyacağına and içir. Odur ki, cəsarətlə deyə bilərəm ki, tarix - diyarşünaslıq muzeyimiz qiymətli maddi-mədəniyyət sərvətlərimizin etibarlı saxlanc yeri, tariximizi özündə yaşadan məbədgahdır.

**Mirhüseyn Seyidov,**
**Şərur rayon tarix-diyarşünaslıq muzeyinin direktoru,**
**Azərbaycan Jurnalistlər Birliyinin üzvü.**